# QENDER ŞÜURU: İNKİŞAF MƏRHƏLƏSİNDƏ OLAN ÖLKƏLƏRİN İNKİŞAF LAYİHƏLƏRİNİN NƏZƏRDƏN QAÇIRILMIŞ ÜNSÜRLƏRİ

Baxmayaraq ki, inkişaf üzrə humanitar agentliklər və inkişaf mərhələsində olan ölkələrin hökumətləri, qadın inkişafı sahəsində yeni siyasətləri ümumiləşdirməyə və həyata keçirməyə çalışırlar, bu siyasətlərdə müvəffəqiyyət inkişaf problemlərlə məşğul olan yetişmiş qender şüurlu işçi heyətindən asılıdır. Bu bölmədə Qadın İnkişafının 5 Meyarı, qadın inkişafına investisiyalar məqsədilə, inkişaf mərhələsində olan ölkələr üçün, inkişaf layihələrinin həyata keçirilməsi anlayışı üçün analitik sistem kimi göstərilmişdir.

İnkişaf prosesində qadınların ehtiyaclarına olan ümumi diqqət çatışmamazlığı, inkişaf layihələri planlaşdıran və həyata keçirən mütəxəssislər arasında qender şüurunun ümumi çatışmamazlığından irəli gəlir. Məqsədyönlü layihə qrupu, çox vaxt qadınların spesifik ehtiyaclarını təyin etmədən həmcins insan qrupları kimi nəzərdən keçirilir. Əksər hallarda məqsədyönlü qrupun qeyd edilməsi üçün istifadə olunan termin kimi «insanlar» sözü işlədilir və bu halda «qadın» termini nəinki mətndən, hətta tərtibçinin fikrindən belə çıxır. Adətən, layihə sənədlərində fermerləri təsvir edəndə fermerlər arasında qadınların da olmasına baxmayaraq «o» əvəzliyi istifadə olunur (başqa dillərdən fərqli olaraq azərbaycan dilində bu fərq görünmür).

Adıçəkilən qruplara aid olan ölkələrdə inkişaf deyiləndə yalnız istehsalın inkişafı və sosial müdafiə nəzərdə tutulmur. İnkişaf, həmçinin, ehtiyacı olanlara tələbatın təmin edilməsini, həmçinin iştirak və birliyi nəzərdə tutur. İnkişaf nəinki istehsalın çatışmamazlığından, hətta əsarət və istismardan yaranan yoxsulluqdan canını qurtarmaq və öz həyatlarının qeydinə qalmaq üçün imkan yaratmaqla bağlıdır. Bu ölkə qrupunun tipik kənd nümayəndəsi – kənd təsərrüfatı məhsulunun istehsalçısı olmasına baxmayaraq, öz uşaqları ilə birgə ərzaq qıtlığı keçirən və kifayət qədər yeməməkdən əziyyət çəkən qadındır. Hamıya məlumdur ki, ərlər – arvadlarından; kişilər – qadın və uşaqlardan; torpaq sahibləri – icarədarlardan; şəhərlilər – kəndlilərdən; varlı alıcılır – kasıb istehsalçılardan çox və yaxşı qidalanırlar.

Beləliklə, qadın inkişafı problemi qadına daha məhsuldar, işgüzar olması və ya öz əməyinir effektli istifadə etməsi ilə bağlı verilən imkandan asılı deyil. Qadın inkişafının əsas problemi – kişilərlə eyni səviyyədə istehsal amillərindən səmərəli istifadə imkanını, qadınlara kişilərlə eyni rolu oynamaq və inkişaf prosesində onlarla bərabər iştirakı təminatını əldə etmək üçün ixtiyar verməkdir.

## Qadın problemlərinin təyini ilə bağlı meyarlar

Bu kitabda, qadın inkişafı, kişilərlə bərabərliyə çatdırılan və qeyri-bərabərliyi aradan qaldıran qadın problemlərilə bağlıdır.

«İnkişaf» anlayışının tərkibinə daxil olan müxtəlif qeyri-bərabərlik formalarını və dərəcələrini sadalamaq vacibdir. Bu konteksdə, inkişaf üzrə ədəbiyyatın böyük hissəsi, iqtisadiyyatın və cəmiyyətin ənənəvi sahələri vasitəsilə: təhsildə, məşğulluqda, qanun qarşısında və s. bərabərliyi təyin edir. Analitik bölünmənin bu sistemində olan çətinlik, onun inkişaf prosesində bərabərliyin güclənməsi rolundan daha çox sosial həyatın müxtəlif sahələrində cəmləşməsindən ibarətdir. Aşağıda bərabərliyin, sosial və iqtisadi həyatın istənilən sektorunda qadın inkişafı səviyyəsinin qiymətləndirmə meyarı kimi 5 müxtəlif səviyyəsi verilmişdir.

**Qadın inkişafı meyarları**

| Bərabərliyin səviyyəsi | | |
|---|---|---|
| Nəzarət | Bərabərliyin möhkəmləndirilməsi | Hüquq və imkanların genişləndirilməsi |
| İştirak | | |
| İctimai təfəkkür | | |
| İmkanlar | | |
| Sosial müdafiə | | |

Qadın inkişafı üçün nəzarətdə bərabərlik, sosial müdafiədəki bərabərlikldən daha vacib olduğundan, bu bərabərlik səviyyələri iyerarxik ardıcıllıqla verilib. Bərabərliyin daha yüksək səviyyəsi avtomatik olaraq inkişaf səviyyəsini qaldırır. Bu həmçinin, qadınları yaşayış vəsaitilə yüksək səviyyədə təmin etməkdən tutmuş, öz həyatlarını idarəetmək hüququnun genişlənməsinə qədər iyerarxiyadakı salahiyyətlərə də aiddir.
Aşağıda qeyd olunan beş səviyyə, hər hansı bir sosial həyat sahəsindəki qadın inkişafının dərəcə ölçüsü meyarlardan ibarətdir:

1. *Sosial müdafiə.* Qadınların kişilərlə müqayisədə maddi sosial təminatının səviyyəsi, məsələn, qida ilə təminat, gəlirlər və sağlamlığın müdafiəsi. Bu bərabərlik səviyyəsi son dərəcə müvafiq sosial müdafiə dərəcəsi ilə bağlıdır, lakin qadınların özlərinin maddi ehtiyaclarını təmin edən vəsaitlərin aktiv yaradıcısı və ya istehsalçısı olub-olmadıqları ilə bağlı deyil. Belə əhatə edilmə, yüksək səviyyə meyarı ilə nəzərdə tutulan yüksək dərəcə səlahiyyəti və inkişafı tələb edir.
2. *Müdaxilə.* Qadınların kişilərlə eyni səviyyədə istehsal amillərinə müdaxiləsi: torpağa, kreditə, təlimə, marketinq vasitələrinə və bütün əlverişli xidmət sahələrinə bərabər səıviyyəli müdaxilə səlahiyyəti və kişilərlə bərabər səviyyəli gəlir. Burada eyni müdaxilə səlahiyyəti, adətən, qadınlara qarşı olan bütün diskriminasiya növlərinin aradan qaldırılması məqsədi ilə, qanunvericiliyin və inzibati təcrübənin renformasına cəlb edilən imkanların bərabərlik prinsipinin təminatı yolu ilə həyata keçirilir.
3. *İctimai şüur/Vicdan – mədəniyyətin təzahür forması olub, sonradan dəyişə bilən c*insi və mədəni rolların fərqi anlayışı. İctimai şüur, cinsi əlamət üzrə əmək bölgüsü vicdanlı olmalıdır və hər iki tərəfdən qəbul olunmalıdır fikrilə bağlıdır və bir cinsin başqa cinsdən ictimai və siyasi üstünlüyü ilə əlaqədar deyil. Cinsi bərabərlik fikri qender şüurunun əsasını və qadın inkişafı prosesində kollektiv iştirakın təməlini təşkil edır.
4. *İştirak.* Bu bərabərlik səviyyəsi qadınların qərar qəbul edilməsi prosesində bərabər iştirakı ilə bağlıdır. Bu, siyasətin, planlaşdırmanın və idarəetmənin formalaşması prosesində iştirakı deməkdir. Bu inkişaf layihələrinin ehtiyacların qiymətləndirilməsi, layihələrin işlənib hpzırlanması, həyata keçirilməsi və qiymətləndirilməsi üzrə iştirakı anlamında olan çox vacib baxışıdır. İştirak bərabərliyi qadınların qərar qəbul etmə yolu ilə cəmiyyətə təsiri üçün və cəmiyyətdə onların bərabər hüquqla onların qərar qəbul etmə prosesinə cəlb olunmasıdır.
5. *Nəzarət.* Bu səviyyədə qadınların qərar qəbul etmə prosesində nəinki iştirakını, hətta istehsal amilləri və nəticələrin əldə edilməsi üçün ictimai şüurun səfərbərliyi yolu ilə bu iştirakın istifadəsini də nəzərdə tutur. Nəzarətdə bərabərlik, qadın və kişilər arasında olan nəzarət səlahiyyətlərin bu şərtlə tarazlaşması deməkdir ki, bu tərəflərin bir–birindən üstünlüyü və asılılığı olmasın.

İnkişaf layihəsi yuxarıda sadalanan beş inkişaf səviyyəsi ilə təyin olunan qadın problemlərilə bağlı olduqda qadın inkişafı ilə əlaqədardır. «Qadınlar problemi» termini bu kontekstdə cinslə və ya stereotipik-ənənəvi asılı qadın rolu məsələlərilə bağlı istifadə olunan «qadın məsələsi» mənasını daşımır. «Qadın məsələsi» terminindən fərqli olaraq «qadın problemləri» istənilən sosial və ya iqtisadi rolda kişilərlə və ya yuxarıda adı çəkilmiş 5 səviyyəsindən hər birində bərabərliyə nail olma ilə bağlıdır. Buna görə də, yuxarıda adı çəkilən 5 meyarın əsas məqsədi «qadın problemləri» ilə «qadın məsələsi» arasında olan fərqi göstərməkdir.
Yuxarıda adı çəkilən meyarlara görə, yoxsulluq, sosial müdafiənin əsas bazisidir ki, bu zaman ailənin gəliri həyatı təminat üçün vacib olan səviyyədən aşağı düşür. Yoxsulluğun bu təyinində onun sırf qadınların problemi olduğunu göstərən heç bir şey yoxdur. Yoxsulluq, qadınlara və kişilərə təsir edən ilk və ən ümumi amildir. Yoxsulluq o yerdə qadın məsələsi olur ki, orada qadınlar kənd təsərrüfatı məhsulunun istehsalında və uşaqların sosial müdafiəsində xüsusi məsuliyyət daşıyırlar, qida və gəlir qadınlar və kişilər arasında ədalətli bölüşdürülmür və qadınlar öz əməklərinin bəhrəsindən ədalətli pay götürmürlər.

**Qadın problemləri və layihə mərhələləri**

Aşağıda göstərilən üsul Qadın İnkişafı Meyarlarına qarşı tipik çatışmamazlıqlar təyini üçün hər hansı bir layihə mərhələsində tətbiq edilir. Biz, yalnız ən vacib çatışmamazlıqları və ya qadın inkişafının hazırki maneələrilə bağlı məqamları nəzərdən keçirəcəyik.

**1. Qadın ehtiyaclarının dəyərləndirilməsi** layihənin işlənib hazırlanmasında insanların ehtiyaclarının öyrənilməsindən başlamaq lazımdır, yəni belə hallarda ola bilən ehtiyacların müəyyən edilməsi və həmçinin, insanların ehtiyaclarının dəqiqləşdirilməsi qadın problemlərinin nəzərdən qaçırılmasının ilk və yəqin ki, ən vacib səbəbi ehtiyacların dəyərləndirilməməsidir. Bu o demək deyil ki, ehtiyacların dəyərləndirilməsində qadın problemləri bütövlükdə nəzərə alınmır, bu o deməkdir ki, belə bir ehtiyacların dəyərləndirilməsi heç keçirilmir.

Adətən, layihə yaranmış vəziyyət və ya kömək edilən icmanın spesifik ehtiyacları haqqında dəqiq və spesifik məlumatı olmayan layihə konsultantı və yaxud mütəxəssisi tərəfindən xülasə edilir, lakin bu mütəxəssis cəmiyyətdə olan vəziyyət, inkişaf birinciliyi və məqsədlər haqda öz biliyi axarından layithə məqsədlərini təyin edir. Adətən, bu ümumi anlayışda ya ölkədə qadınlarla bağlı hallar haqda məldumat və qadın inkişafında həll olunmalı əsas problemlər çox azdır, ya da ki, belə bir məlumat heç yoxdur.

Bu addımlar, qadınların vəziyyətinə tam baxılmayan, qadın inkişafı prosesinə mənfi təsir göstərə bilən, xüsusən də qadınların əmək gərginliyinin artırılması yolu ilə, eyni zamanda layihə nəticələrinin kişilərin nəzarəti altına keçirən layihələrin yaranmasına gətirib çıxarırlar.
Belə layihələr iflasa məhkumdurlar, çünki qadınların əksəriyyəti, onların üzərinə qoyulan əlavə vəzifələri görüb, bu layihələrdən imtina edirlər, həm də onların uşaqları və özləri üçün fayda minimal səviyyədədir.

Qadın İnkişafının Meyarlarının mənası, məqsədyönlü qruplarda və ya icmalarda, qadınların ehtiyacları beş səviyyə üzrə dəyərləndirilməlidir: sosial müdafiə, müdaxilə səlahiyyəti, ictimai şüur, iştirak və nəzarət, bu məqsədlə ki, layihənin təsiri bu səviyyələrin hər birində qadın inkişafına necə dəyərli qoyuluş edə biləcəyini təklif etməkdən ibarətdir. Ehtiyacların dəyərləndirilməsi üçün, birincilik əldə edən məqsədyönlü qrupları təyin etmək lazımdır, məsələn, meyarlar nöqteyi-nəzərindən, inkişaf prosesində köməyə daha çox ehtiyacları olan, ailə başçısı olan və ya torpaq

sahəsi olmayan dul qadınlar, ancaq layihə onların vəziyyət və ehtiyaclarını nəzərə almazsa, onlar böyük riskə məruz qalacaqlar.

**2. Layihə məqsədlərinin təyinində qadın problemləri**

Adətən qadın problemləri, layihə məqsədlərinin təyini zamanı nəzərə alınmır. Əgər layihənin işlənib hazırlanmasına cavabdeh olan humanitar agentliyə nə üçün layihə sənədlərində qadın inkişafına aid olan heç bir şey yoxdur sualını versən, adi bir cavab alarsan ki, bu layihə qadınlarla bağlı deyil və yaxud sadəcə «bu qadın layihəsi deyil».

İnkişaf üzrə mütəxəssislər arasında hələ də belə bir fikir var ki, qadın inkişafı ayrı-ayrı və xüsusi qadın layihələrilə məhdudlaşır və bu ayrı-ayrı layihələr gəlir gətirən fəaliyyət növləri ilə bağlı olmalıdır, xüsusən də qadın klublarında, ənənəvi qadın fəaliyyət növlərində, məsələn, toxuculuq, tikiş sənayesi və xörək hazırlama. Hər halda, Qadın İnkişafı Meyarlarına uyğun olaraq «qadın klubları layihələri» qadın inkişafına bir qoyuluş kimi yox, yalnız ondan hasil etmə kimi baxıla bilər.

Meyarlara uyğun olan qadın inkişafı səviyyələrinə əlavə olaraq, qadın problemlərinin nəzərə alınıb alınmamasını nöqteyi-nəzərindən layihə məqsədlərinin qadın inkişafına nə qədər dəqiq uyğun olduğunu təyin etmək faydalı olardı. Bu məqsədlə, layihəyə görə qadın problemlərinin nəzərə alınmasının aşağıda sadalanan 3 səviyyəsini təyin etmək olar:

1. *Mənfi səviyyə.* Bu halda layihə məqsədləri üçün, qadın problemləri qeydə alınmır. Təcrübə göstərir ki, çox vaxt inkişaf mərhələsindəki ölkələrdə olan qadınlar, layihələr nəticəsində daha da pis vəziyyətdə qalırlar və buna görə də, onlar qadın inkişafı üçün mənfi xarakter daşıyırlar.
2. *Neytral səviyyə.* Bu halda layihə məqsədləri üçün qadın problemləri qeyd olunur. Lakin onlara olan münasibət neytral və ya layihə nəticəsində qadınların vəziyyəti pisləşməyəcək fikirdən ibarət konservativ səviyyədə qalır.
3. *Müsbət səviyyə.* Bu halda layihə məqsədləri qadın problemlərilə və qadınların vəziyyətlərinin kişilərlə müqayisədə yaxşılaşması ilə bağlıdır.

Bu kateqoriyalarla və layihə məqsədlərinin ümumi tarazlaşmasına uyğun olaraq, biz müsbət və mənfi layihələr haqda fikir yürüdə bilərik.

Nə yuxarıda göstərilən səviyyələrdə, nə də ki, Qadın İnkişafı Meyarlarında, yalnız qadınların və ya yalnız kişilərin, və yaxud, qadınların və ya kişilərin bir hissəsinin layihələrin məqsədyönlü qruplar olması haqda heç bir şey deyilmir. Qadın inkişafı anlayışı altında, Meyarlarda təyin olunduğu kimi, layihənin qadın problemlərilə nə qədər uyğun gəldiyi nəzərdə tutulur. Qadınlar və kişilər arasında olan bərabərlik məsələləri həm kişilərə, həm də qadınlara eynilə aiddir.

Qadın inkaşafı komponenti, ehtiyacların dəyərləndirilməsi və layihənin işlənib hazırlanması mərhələlərində adətən nəzərdən qaçırıldığından, məntiqi görünür ki, layihənin yazılışının sonuncu mərhələsində, bu problemlə bağlı olan nəyisə tapmaq, adətən çox çətin olur.

Əsas məqam ondan ibarətdir ki, Meyarlar, sosial müdafiənin, gəlirin, istehsal potensialının və qadınların qabiliyyəitlərinin yaxşılaşması prosesi kimi, qadın inkişafını izah edir. İnkişaf layihələri bu prosesin bir hissəsidir və onlar bu prosesə sadiq qalmalıdırlar. Məhz buna görə də, strategiyalar və həyata keçirilmə üsulları, aşağıdakı məsələlərdə, qadınlara səlahiyyətlərin verilməsi prosesinin nümunəsi olmalıdır, məsələn, layihə həyata keçirən qruplarda olan qadınların sayının uyğun gəlməsi, qruplarda qender şüurunun səviyyəsi, layihə idarəetməsi komitəsinin nümayəndəsi olan məqsədyönlü qrupdakı qadınların sayının uyğun gəlməsi, qadınlar və kişilər üçün eyni məşğulluq şərtləri və s. və əksinə, kişilərin üstünlüyü və layihə ilə patriarxal idarəetmə

üsulu, qadın inkişafı ilə bağlı layihə məqsədlərini heçə çıxaran gizli ibrət və xüsusiyyətlərdən ibarətdir.

**3. Layithənin həyata keçirilməsində qadın problemləri**

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, qadın inkişafına ciddi qoyuluşu nəzərə alaraq, yazılan bir neçə layihə istisna olmaqla, bu komponent həyata keçmə mərhələsində yox olur. Bu səbəblərdən biri o ola bilər ki, layihəni həyata keçirən qrup nümayəndələri qender şüurundan kənardadırlar, qadın inkişafı prosesnə sadiq deyillər və müxtəlif bürokratik qarşıdurma formalarına asanlıqda daxil olurlar. Məhz buna görə də, tez-tez «biz yerli ənənələrə zidd olan işlər görmək istəyirik, bəs onda biz niyə narahat olmalıyıq?» sualını eşitmək olar. Layihənin həyata keçmə mərhələsində ən vacib meyar ictimai şüurdur (vicdan), xüsusən də layihə həyata keçirən qrup nümayəndələrində.

**4. Layihənin dəyərlənməsində qadın problemləri**

Qadın inkişafına layihə qoyuluşunun necə dəyərləndirilməsi haqda «Nou Hau» adlı ümumi çatışmamazlıq üsulu var. Bu layihə dəyərləndirilməsi üzrə müxtəlif metodologiyaların və həmçinin, faydanın müdaxiləsindən dəyərləndirilməsi sahəsinə lap az aid olan üsul baş verir.

Layihə faydasının dəyərləndirilmə təhlili, layihə nəticələrinin dəyərləndirilməsi ilə bağlıdır, eyni zamanda qadın inkişafı nöqteyi-nəzərindən, layihə dəyərləndirilməsi, qadınlara sosial və siyasi sahələrdə səlahiyyətlər verilməsi prosesinə baxılmaqla bağlı olmalıdır. Qadın inkişafının dəyərləndirilməsi layihənin hər mərhələsində keçirilməlidir və Qadın İnkişafının Meyarları dəyərləndirmə meyarları kimi tətbiq edilə bilərlər.

Əgər nümunə yerinə, iştirakla bağlı Meyar götürsək, layihədə dəyər verən, layihədə iştirak edəcək və layihədən xeyir götürən qadınlar arasında uyğunluq yaratmalıdır. O, xüsusi yerli və məqsədyönlü qadın qrupları müdaxilə, qərar qəbul etmə, layihə planlaşdırma, onu idarəetmə, həyata keçirmə və dəyərləndirmə prosesinə cəlb olunacaq ki, qadınların təklif olunan uyğunluğuna baxmalıdır.

Həyata keçirmə zamanı, qadınların iştirakına və onlara səlahiyyət verilməyə qarşı layihənin irəliləməsi üçün dəyərləndirməni və monitorinqi həyata keçirmək vacibdir. Əvvəlki məqsədlər və layihə məzmunu ilə müqayisədə faktiki irəliləməni təyin etmək lazımdır, yardım olan icmalar və məqsədyönlü qruplardan olan qadınların əvvəlcədən nəzərə alınan sayda və uyğunluqda (kişilərlə müqayisədə) layihə mərasimində və qərar qəbul etmə prosesində iştirak etdikləri və ya etmədiklərini təyin etmək. Əgər əvvəlcədən nəzərə alınan uyğunluğa riayət edilibsə, onda növbəti nöqteyi-nəzərə diqqət yetirmək lazımdır -–bu sübutdur ki, qadınlar özlərinin problem və maraqlarını yaxşı və düz başa düşürlər və onların müdafiəsinə səfərbərdirlər, istehsal amilləri üzərində böyük daxilolmanı və nəzarəti əldə etmək üçün qərar qəbul etməyə və mərasimlərin xüsusiyyətinin dəyişməsinə təsir edirlər. Yalnız həyata keçmənin sonuna yaxın, layihə nəticələrini dəyərləndirmək, o nöqteyi-nəzərdən ola bilər ki, gəlirin və sosial müdafiənin artması və əmək səviyyəsinin azalması məsələlərində kişilərlə müqayisədə qadınların vəziyyəti nə qədər yaxşılaşıb. Uzunmüddətli səmərə kimi, vacibi odur ki, inkişaf prosesində qadınlar iştirak etməyə davam edərləri və onların səylərinin davamlı kollektiv səfərbərliyi qadın inkişafında, qadın problemlərinin təminatına yönəlibdirmi. Bu kontekstdə, maddi dəyərlər ikinci dərəcəlidir: qadın inkişafı layihəsi komponentinin əsas məqsədi imkanların təminatı və qadınlar özlərinin vəziyyətinin yaxşılaşması üçün kollektiv surətdə fəaliyyət göstərmələri və beləliklə də, başqaları tərəfindən qəbul edilən qərarların passiv icraçıları olmamaları üçün onlara səlahiyətlərin verilməsi prosesinin inkişafı ilə bağlı olmalıdır.

## 5. İnkişaf proqramlarında qadınların problemi

Adətən, ayrı-ayrı inkişaf layihələri kompleksdə ölkə Proqramı adlanan ümumi layihə proqramlarının bir hissəsi olurlar. Belə bir proqram ümumi siyasətə uyğun olaraq tərtib edilir və onun da öz üstünlüyü və tematikası vardır. Məsələ ondan ibarətdir ki, qadın inkişafı ümumi mövzunqun əsas ünsürüdürmü və ya o, ikinci dərəcəli kimi görünür.

Qadın İnkişafı Meyarı bütöv proqramın dəyərləndirilməsinin potensial əsasından ibarətdir. Məsələn, qadın inkişafı proqramı komponentinin dəyərləndirilməsi, hər layihənin məqsədi üçün, qadın probleminin nəzərə alınma səviyyəsini göstərən Qender Sxemi (bax Cədvəl 5-6) tərtibatı yolu ilə edilə bilər.

Əgər müxtəlif layihələrdə, qadın inkişafı səviyyələrinin geniş spektorunun nəzərə alınması təminatı üçün proqram səviyyəsində, qadın inkişafı baxışının bütün layihələrə daxil edilməsi haqda öhdəlik möhkəmlənibsə və həmçinin, əgər qadın inkişafının müxtəlif baxışlarının xüsusi nəzərə alınmasına üstünlük verən bir neçə layihə proqrama daxil edilibsə, bu halda, qadın inkişafı proqramın tematikasının vacib ünsürü olacaq.

Ümumiyyətlə, proqram üçün vacib olan odur ki, qadınların ölkədə vəziyyətini, qadın inkişafı ilə bağlı məsələlərdə ölkə siyasətini nəzərə almaq və qadın inkişafı ilə bağlı layihələrin daha çoxunu proqrama daxil etmək üçün, həlloluna bilən, qarşıda duran vəziyyətləri yaratmaq. Qadın inkişafı sahəsində, qadın inkişafı ilə bağlı layihələrin planlaşdırma, həyata keçmə və dəyərləndirilməsi üzrə institutlaşmış potensialın möhkəmlənməsində kömək göstərmə yolu ilə qoyuluş edilə bilər.

Əlbəttə, humanitar agentliklərə təklikdə, spesifik inkişafa üstünlük verən Ölkə Proqramı yaratmaq çətindir. Həmişə belə bir təhlükə var ki, Ölkə Proqqramı, daxilən bir-birilə bağlı olmayan və heç bir ümumi tematikası olmayan layihələrin məcmuəsi olacaq. Qadıq inkişafı ilə bağlı tarazlaşdırılmış və dəyərli tematikanın həll olunması ölkədə fəaliyyət göstərən inkişaf üzrə başqa agentliklərlə sıx əməkdaşlığı nəzərdə tutur. Bu inkişaf üzrə agentliklərin yerli nümayəndələrinə ölkədə qadın inkişafının daha yaxşı perspektivlərinə nail olmağa və böyük ehtiyaclar duyan, lakin zəif irəliləyiş edən bu sahəyə daha da faydalı və əlverişli qoyuluş etməyə imkan yaradardan sıx əməşdaşlıq olmalıdır.

Cədvəl 5. Layihənin Qender Sxemi

Layihənin adı ________________________

| Qeydiyyatın səviyyəsi / Bərabərliyin səviyyəsi | Mənfi | Neytral | Müsbət |
|---|---|---|---|
| Nəzarət | | | |
| İştirak | | | |
| İctimai təfəkkür | | | |
| İmkanlar | | | |
| Sosial müdafiə | | | |

Cədvəl 6. Ölkə proqramının Qender Sxemi

| | | Qadın İnkaşafı ilə bağlı olan səviyyə | | | | |
|---|---|---|---|---|---|---|
| Sahə | Layihə | Sosial müdafiə | İmkanlar | İctimai təfəkkür | İştirak | Nəzarət |
| Kənd təsərrüfatı | | | | | | |
| | | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Təhsil və hazırlıq | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| Ticarət və sənaye | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| Qadın Layihələri | | | | | | |
| | | | | | | |

**Layihə planlaşdırılmasında Qender şüurunun təminatı**

Kənd yerinin inkişafı planlaşdırılması planının işlənib hazırlanması və yazılması prosesi nəticəsində baş verən nəticələrə yönəlir. Bu prosesə müxtəlif insanlar cəlb olunur: onların plana daxil ola bilən fikirləri radikal surətdə istiqaməti dəyişə bilərlər. Plana müdaxilə bunları əhatə edir: yardım alanların ehtiyacları, layihə həyata keçməsi və qeyri-dövlət təçşkilatlarının rolu. Müdaxilə humanitar agentliklərin potensialının öyrənilməsindən başlanır: o, səhvlər və kontingentlə nə dərəcədə yaxşı bacarır, institutlaşmış potensialın möhkəmlənməsi üzrə təcrübədən necə istifadə edir və alınan bilikləri nə dərəcədə icma ilə bölür.
Planlaşdırma mərhələsində və sonrakı mərhələdə də icmalarla aparılan işdə qeyri-hökumət təşkilatları tərəfindən tətbiq edilən üsul həlledici rol oynayır. Strategiya təklifinin vacibliyini yenidən dəyərləndirmək çətindir. Bu strategiya eyni biliklərə, icmanı anlamağa və onunla ünsiyyətdə olmağa əsaslanmalıdır və bu proses üçün qadınlar zəruridir.

**Strategiyanın təqdimatının vacibliyi**

Kənd yerinin inkişafı üzrə agentlik və icma arasında olan məhsuldar münasibətlər, planlaşdırma mərhələsində onlar arasında əldə edilən dəyişikliklər prosesi haqda sazişdən asılı olacaqdır. Vacib olan üç mərhələ:

- Üzərinə təsir yönələn dəyərlərin və qapşıda duran məsələlərin əhali ilə razılaşdırılması;
- Əhali və inkişaf üzrə agentlik, bir-birinə nə təklif edə biləcəkləri haqda sazişin bəndlərinin müzakirəsi; planlaşdırılan nəticələrin əldə edilməsi üçün hər birinin iştirakı və rolu necə təşkil olunacaqdır;
- Nəinki problem və ehtiyacları, hətta onları törədən səbəbləri də birlikdə müəyyən etmək məqsədlə vəziyyətin ümumi təhlilinin keçirilməsi.

Yalnız inkişaf üzrə agentliklər üçün vacib olan dəyərlərin yenidən qiymətləndirilməsindən yan keçmək vacibdir. Məsələn, qərb feminist siyasəti asan və istəklə keçirilə bilməz, lakin ən yoxsul qrupların yaşayışı üçün vəsaitlərin təminatı üzrə öhdəlik həm qadınların, həm də kişilərin inkişafına təkan verə bilər və həmçinin, qenderlər arasında hakimiyyətin, qadınların xeyrinə olan, tarazlaşmasının istənilən dəyişikliyinə gətirib çıxara bilər.
Bu yanaşmanın mənası partnyor əlaqələrinin yaradılmasındadır ki, buna da humanitar agentlik diqqət yetirir, öyrənir və məsləhət verir. Bu yalnız ona görə vacib deyil ki, icmadakı ən yoxsul qruplar, xüsusən də qadınlar asanlıqla nəzarət dairəsindən kənarda qala bilərlər. Lakin hər bir icmanın həyatı daha geniş konteksti əhatə edir. Mühitin yaxşılaşmasına, siyasət və sosial iqtisadi sistemə gətirib çıxarmalı olan qadınların perspektiv əlaqələrinin inkişafı, humanitar agentliyin qadınların həm təcrubi, həm də strateci ehtiyaclarını dəyərləndirmək üçün istək və qabiliyyətini nəzərdə tutur.

Hər halda, qadınların həm təcrübi, həm də strateci ehtiyaclarının təyini, icma və icmanın müxtəlif humanitar agentliklər tərəfindən təklif olunan işləmə qabiliyyəti ilə bağlı qadınlar və kişilər arasında münasibətlərə olan mədəni xüsusiyyətli perspektivlərlə əlaqəli prosesdən ibarət olmalıdır və əksinə.
Hər hansı birgə müzakirə və qəbul edilmiş iş planı, layihənin siyasəti, yazılışı və həyata keçməsi üçün lazimi ünsürlərdən ibarət olmalıdır. Mozer və Levi (1986-cı ildə) qender strategiyasının iki amilini üzə çıxardılar: birincisi, hansı təcrübi və strateci ehtiyaclar, sosial-iqtisadi və siyasi şərtlərlə konkret yerdə və konkret vaxtda qane olmaları haqqında əsaslı qərar; ikincisi, qadınların yerli orqanlara müdaxilə səviyyəsinin dəyərəndirilməsi və bu institutlar təcrübi və strateci ehtiyacların bəzilərinin və ya hamısının öyrənilməsi üçün istifadə oluna bilər.
Əsaslanmanın möhkəmlənməsi üçün üç üsul vardır ki, bunların köməyi ilə humanitar agentlik qərarlar və dəyərləndirmənin dəqiqliyini təyin etməlidir. Bu, qender əlaqələrinin sözügedən icmada necə qurulduğu haqda öz anlayışını dərinləşdirmək; qadınlarla öz müzakirə aparmaq üsullarını yaxşılaşdırmaq; planlaşdırma məqsədləri üçün istifadə olunan məlumatın keyfiyyətini yaxşılaşdırmaqdan ibarətdir.

**Qender əlaqələri anlayışının dərinləşməsi**

Ehtiyatlar üzərində müəyyən nəzarət və müdaxilə anlayışı və gəlir əldə edilməsi, qender əmək bölgüsü ilə bağlı olan, hakimiyyətə müdaxilənin fərqli anlayışının əsas hissəsi olmalıdır. Ənənəvi layihə dəyərləndirilməsi sistemində təhlil vahidi, layihənin dəyər və faydalarının qiymətləndirilməsi məqsədi ilə seçilən ailə olur. Bunun təməlinə kişinin ailə başçısı olduğu daxil edilir. Ancaq layihə planlaşdırılmasında əsas səhv ailənin qərar qəbul etmə prosesində həmcins vahid kimi baxılmasıdır. Tamamilə aydın olur ki, bu belə deyil. Bir çox kənd təsərrüfatı icmalarında müxtəlif nümayəndələrin öz istehsal və sahibkar rolları var. Onlar eyni deyil və çox vaxt özlərinin əsas ehtiyaclarının ödənilməsi üçün, ehtiyatlar və əmək nəticələrinə görə öz aralarında münaqişəyə girirlər.
Qender strategiyasının təhrif edilməsinin qarşısını almaq üçün ailə strukturunda qender əlaqələrinin dərindən anlaşılması xeyrinə bir arqument vardır. Ailə çərçivəsindən kənar baş verənlərə onların təsirinin qiymətləndirilməsi ailədə artan sosial əlaqələr kompleksinin müxtəlifliyində və baxılmasında heçə çıxmaq təhlükəsi vardır. Məsələn, qadınlar təşkilatının heyətində çalışmaq üçün qadınlar kişilərin razılığını almaq istəyəcəklər və yaxud onlar istəyəcəklər ki, kişilər onların fərdi çalışmasına razılıq versinlər, lakin bu o demək deyil ki, kişilər qərar qəbul etmə prosesində üstünlük təşkil edirlər.
Bununla belə, qadın qurumlarının maliyə gəlirlərinə kişilərin nəzarəti, qadın müstəqilliyinə və inkişafına hətta ailədə qərarların verilməsi prosesində qadınların fərdi səlahiyyətinə zərər vura bilər.
Kənd ailəsində qender əlaqələrinin anlayışına necə nail olmaq mümkündür? Əsas prinsip – kişilərlə bərabər qadınlarla da məsləhətləşmək. Ən asan üsul – onların sonradan müqayisə olunan fəaliyyətini, ehtiyatları və vəzifələrini qeyd etmək. Qadınların və kişilərin iş yükündə mühitdən, mövsümdən, texnologiyalara yol, ailə üzvlərinin sayı istehsala qoyulan vəsaitlərin qiymətinin artması göstəricilərin və inkişaf agentliyinin istifadə etdiyi təsir üsulu, qadınların fəaliyyəti, onların idarə etdiyi sərvətlər, yerinə yetirdiyi vəzifələr haqqında keyfiyyətli məlumat bölgəsini zənginləşdirirlər. Planlaşdırma mərhələsi zamanı və ondan sonra qadınların məqsədli qrup kimi statusunu möhkəmləndirmək üçün ətrafında eksklüziv zona yaratmaqdan çəkinmək lazımdır.

**Qadınlarla məsləhətləşmə üsullarının genişləndirilməsi**

Qadınlar həmcins ictimai qrup tərtib etmir. Onların tələbatları yaşdan, fəaliyyət, ehtiyat və vəzifə növlərindən asılı olaraq dəyişir. Bunun üçün, tələbatın qiymətləndirilməsi, ictimai və fərdi müxtəlif cinsliyi nəzərə alınmalıdır. Qadınlara tələbatların müəyyən edilməsində kömək lazım olar. Bu prosesin həyata keçirilməsində müxtəlif texnologiyalar istifadə edilə bilər: həyat tarixini qeyd etmə və parçalanma, söhbətlərin və qadının öz şəklinin və başqa qadınların şəkillər dəstinin müzakirəsi, qender məsələlərinin qeyri-bərabərliyi nöqteyi-nəzərindən üzə çıxarmaq üçün vəziyyət təhlili və başqa məlumat mərkəzinin müzakirəsi.
Vacibdir ki, danışmaq elə də asan olmayan qadınlar üçün, müzakirənin konteksti və üslubu başa düşülən olsun. Keçirilmə yeri, istifadə olunmuş material, qrupun sayı və tərkibi – bunlar hamısı vacib amillərdən biri ola bilər. Qrupun tərkibində işləmək təşkilatçılıq qabiliyyəti tələb edə bilər. Qadınların qrupu idarəetmə qabiliyyətinin inkişafı və ya qadınların xidmətlərindən istifadə etdiyi mövcud təşkilatların müdafiəsi strategiyasının bəyənilməsindən əvvəl inkişaf prosesində həyati vacib ola bilər.
Yuxarıda adı çəkilən tədqiqatçıların qeyd etdiyinə görə, planlaşdırma prosesində qadınların fəal iştirakını və qender qeyri bərabərliyini əbədiləşdirən məsələlərin müzakirəsi yalnız inkişaf məqsədlərinə nail olma vasitəsi kimi yox, hətta özləri üçün də faydalıdır. Eyni zamanda, qadınların öz vəziyyətləri haqda fikrini və bəzi praktik maraqların təminatı haqda istəklərini bildirmək, verilməkdə olan yardımın dəyərləndirilməsi üçün strateci maraqlar əsasında, kənardan olan insanlar tərəfindən işlənib hazırlanan məsələlərdə təsvir edillən «mavi perspektivlər»dən daha dəqiq məlumatı verə bilər. Praktik ehtiyacların təminatı, uzunmüddətli strategiya ilə necə əlaqələndirilə bilər məsələsi, müvafiq qadın qrupu ilə monitorinq və tez-tez keçirilən müzakirələr zamanı və bütöv icmanın çərçivəsində tapılan qərarların növbəti yoxlanması zamanı həll olunmalıdır.

**Planlaşdırma üçün məlumatın keyfiyyətinin yaxşılaşması**

Qender qeyri bərabərliyinin diaqnostikasına və təkliflərin işlənməsinə sərf olunan vaxt arasında tarazlaşma təyin edilməlidir. İştiraka əsaslanan texnika həm icmalara, həm də humanitar agetliklərə, bir-birilərinin dəyər və meyarlarını öyrənmək üçün imkan yaradır. Bu məlumatın interaktiv yolla sınaqdan (testdən) keçməsi planlaşdırma strukturunun quruluşu və məlumatın monitorinqi prosesinin bir hissəsidir. Kənd yerinin tez bir vaxtda dəyərləndirilməsi texnikasının, müxtəlif vəziyyətlərdə tətbiq edilməsi, üsullar kompleksinin istifadəsi vacibliyini göstərir. Onlardan üçü aşağıdakılardır:

***1. Birbaşa cədvəl və üstünlük təsnifatı:***
Qadınların spesifik yerli qabiliyyətləri və bilikləri olduğu hallarda qərarlar qəbul etmək, istehsalat və təşkiletmə fəaliyyətlərində əsaslandıqları meyarları anlamaq vacibdir. Təsnifat metodologiyaları, spesifik yerli biliklərin təyini üçün müvəffəqiyyətlə istifadə edilmişlər. Birbaşa cədvəl təsnifatı respondentə ehtiyatların niyə bir tipinə daha çox üstünlük verməyini təyin etmək üçün onun fikrincə ona vacib olan meyarları sadalamağ təklif edir. Xallar, hər ehtiyat tipi üçün, hər meyar üzrə qoyulur və həmçinin, cədvəl tərtib olunur ki, bu da üstünlük verilən tipləri, və hazırki yerdə bu və ya digər dənli tipinə üstunlük verilmədiyini eyniləşdirir. Üstünlük təsnifatı, eyniadlı tiplər və ya bir-neçə tiplər arasında keçirilə bilər. Beləliklə, üstünlük təsnifatı xallarının ikinci cədvəli yaranır. Bu üsulun iki xüsusiyyəti əsasən vacibdir:

- təsnif edilməli və sonrada xallarla dəyərləndirilməli olan meyarlara qarşı, qrupda konsensusa nail olmanı nəzərə alan keyfiyyətli müzakirəyə, bütün ona cəlb olunan şəxslərə məxsus təlim prosesindən ibarətdir.

- Qruplar tərəfindən seçilmiş meyarlar, ehtiyatların idarə edilməsi və başqa yolla üzə çıxa bilməyən qərarların qəbul edilməsi sistemində çox vaxt əlaqə göstəriciləridirlər. Və əgər bu əlaqələr üzə çıxarsa, onda onlar ayrı təhlilin daha da dərinləşməsi üçün xidmət edə bilərlər.

***2. Vəziyyətin təhlili və «məhsulun həyati döriyyəsi»***

Qrup müsahibəsi keçirmə yolu ilə məlumat toplama, təlim və təcrübənin keçməsini tələb edən üsuldur. Fəaliyyətin ardıcıllığına və mərhələlərə yönələn metodologiya, qrup müsahibəsində qender məlumatlarının toplanma prosesini təmin edə bilər. Vəziyyətin təhlili vasitəsi ilə hərəkətlərin ardıcıllığının diaqram təsviri qurulur. Ardıcıllığın hər mərhələsi, qender əmək bölgüsünün, ehtiyatların və vəzifələrin üzə çıxması üçün yoxlanıb, müzakirə edilə bilər. Bu texnikanın «məhsulun həyati dövriyəsi» üçün istifadəsi, məsələn dənlilərdən bir növü götürsək toxumun alınan və ya əkilən günündən, satılan və ya xörək bişirilən gününə qədər onun dövriyyəsinin izlənilməsi, müzakirə prosesində müxtəlif nüanslarla əlavə edilə bilər, məsələn sərf edilən vaxt, işlənilmiş texnologiya, mövsüm dəyişilməsinin təyini.

***3. Sual vərəqələri***

Sual vərəqələri, layihə planlaşdırılmasında qender vasitələri kimi işlənib hazırlanmasına baxmayaraq, onlar humanitar agentliklərin icmalarla effektiv əlaqəsinə o vaxta qədər maneə ola bilərlər ki, hər hansı bir başqa vasitə kimi istifadə olunduqları kontekstə uyğun olaraq təkmilləşməyəcək və uyğunlaşmayacaqlar. Qadınlar birgə planlaşdırılan qoyuluşdan olan faydaları dərk edə biləcəkləri vaxt, onda bu konteksti, prosesin ilk addımı kimi anlamaq olar.

***Nəticə***

Layihənin icmanın real ehtiyaclarına olan uyğunluğunun vacibliyi şişirdilə bilməz; və buna nail olmaq üçün, inkişaf üzrə agentliyə, ilk növbədə, icma ilə tam şəkildə ünsiyyət yaratmaq və müzakirələr aparmaq lazımdır. Qadınlar, prosesin ayrılmaz hissəsi olduğundan əmin olmaq üçün, bütün iştirakçıların qender şüurunu yaxşılaşdırmaq, qadınlarla ünsiyyətin yollarını tapmaq, və ən yüksək səviyyədə olan məlumat üzərində planlaşdırma qurmaq lazımdır.

**Harvard üsulu: sual vərəqələri**

Aşağıda layihənin hər hansı bir mərhələsində ən əsas sayılan suallar toplusu, məqsədlərin təyini, işlənib hazırlama, həyata keçirmə və dəyərləndirmə verilib.

**Layihə məqsədlərinin təyinində qadın ölçüsü**

**Qadın ehtiyaclarının dəyərləndirilməsi**

1. Qadın tərəfindən məhsuldarlığın və ya istehsalın artırılması üçün hansı ehtiyaclar və imkanlar vardır?
2. Qadınların daxilolma səlahiyyətinin və ehtiyatlarının nəzarətinin artırılması üçün hansı ehtiyaclar və imkanlar vardır?
3. Bu ehtiyaclar və imkanlar ölkənin başqa ümumi bölmələr üzrə (sahə üzrə) ehiyacları və imkanları ilə necə uyğunlaşırlar?
4. Belə ehtiyaclar və imkanların təyinində qadınlar müzakirəyə cəlb olunmuşlarmı?

**Layihənin ümumi məqsədlərinin təyini.**

1. Layihə məqsədləri qadın ehtiyaclarına dəqiq uyğun gəlirlərmi?
2. Layihə məqsədləri qadın ehtiyaclarını eyniliklə mi əks etdirirlər?

3. Bu məqsədlərin təyinində qadınlar iştirak etmişlərmi?
4. Bu sahədə hər hansı bir cəhdlər əvvəllər nəzərdə tutulmuşdurmu?
5. Hazırki təkliflər indiki fəaliyyətlə necə uzlaşırlar?

**Mümkün olan mənfi nəticələrin təyini.**

1. Bu layihə ehtiyaclara və nəticələrə qadınların müdaxilə səlahiyyətini və nəzarəti azalda bilərmi?
2. Layihə hər hansı başqa yolla qadın vəziyyətinə mənfi təsir edə bilərmi?
3. Uzunmüddətli və qısamüddətli təsir qadınlar üçün necə olacaq?

**Layihənin işlənib hazırlanmasında qadın ölçüsü**

**Layihənin qadın fəaliyyətinə qoyuluşu**

1. Bu fəaliyyət növlərindən hansına layihə təsir edir: məhsuldar, reproduktiv və sosial-siyasi?
2. Hazırki qender fəaliyyət növünün qeyd edilməsinə maneəçilik törətməyən komponent planlaşdırılıbmı?
3. Əgər qadınlar tərəfindən görülən bu işin yerinə yetirilməsini dəyişdirmək planlaşdırılıbsa, bu həyata keçəndirmi və qadınlar üçün mənfi və ya müsbət təsiri olacaqmı?
4. Əgər o dəyişdirilməsə inkişaf prosesində qadın rolunun dəyişməsi üçün olan imkan əldən verilmiş kimi hesab olunacaqmı?
5. Yuxarıda adı çəkilmiş müsbət təsirləri artırmaq və mənfiləri azaltmaq və ya onlardan yan keçmək üçün layihə necə dəyişdirilə bilər?

**Qadınların müdaxilə səlahiyyətinə və nazərətinə layihənin qoyuluşu**

1. Layihənin hər komponenti ehtiyatlar və nəticələr üzərində nəzarətə və müdaxilə səlahiyyətinə necə təsir edir; onları malların və xidmətlərin istehsalına daxil edərək və ya ondan uzaqlaşdıraraq?
2. Layihənin hər komponenti, ehtiyatlar və nəticələr üzərində nəzarətə və müdaxilə səlahiyyətinə necə təsir edir; onları reproduktiv fəaliyyətə daxil edərək və ondan uzaqlaşdıraraq?
3. Layihənin hər komponenti, ehtiyatlar və nəticələr üzərində nəzarətə və müdaxilə səlahiyyətinə necə təsir edir; onları sosial-siyasi funksiyaların yerinə yetirilməsinə daxil edərək və ondan uzaqlaşdıraraq?
4. Əgər o, dəyişirilmirsə, inkişaf prosesində, qadın rolunun dəyişməsi üçün olan imkan, əldən verilmiş kimi hesab olunacaqmı?
5. Yuxarıda adı çəkilmiş müsbət təsirləri artırmaq və mənfiləri azaltmaq və ya onlardan yan keçmək üçün, leyhinə necə dəyişdirilə bilər?

**Qadınların müdaxilə səlahiyyətinə və nəzarətinə, layihənin qoyuluşu**

1. Layihənin hər komponenti, ehtiyatlar və nəticələr üzərində nəzarətə və müdaxilə səlahiyyətinə necə təsir edir; onları malların və xidmətlərin istehsalına daxil edərək və ya ondan uzaqlaşdıraraq?
2. Layihənin hər komponenti, ehtiyatlar və nəticələr üzərində nəzarətə və müdaxilə səlahiyyətinə necə təsir edir; onları reproduktiv fəaliyyətə daxil edərək və ya ondan uzaqlaşdıraraq?
3. Layihənin hər komponenti, ehtiyatlar və nəticələr üzərində nəzarətə və daxil səlahiyyətinə necə təsir edir; onları sosial-siyasi funksiyalarının yerinə yetirilməsinə daxil edərək və ya ondan uzaqlaşdıraraq?
4. Vəziyyətin tədqiqatına təsir göstərmək üçün hansı cəhdlər edilir?
5. Ehtiyatlar və nəticələr üzərində nəzarəti və müdaxilə səlahiyyətinin yaxşılaşması üçün layihə necə dəyişirilə bilər?

**Layihənin həyata keçməsində qadın meyarı**

1. Layihənin heyəti kifayət qədər qender şüuruna malikdirmi və bu heyət qadınların ehtiyaclarına simpatiya ilə yanaşırmı?
2. Yardım alan qadınlara mallar və xidmətlərin çatdırılması üçün qadınlar cəlb olunurmu?
3. Qadınlara lazım olan hər hansı bir qoyuluşun həyata keçməsi üçün heyətə xüsusi qavramlar öyrədilmişdirmi?
4. Bölüşdürmə sisteminin inkişafı üçün hansı təlim texnikası istifadə olunacaq
5. Layihə rəhbəri kimi çıxış etmək üçün qadınların fəaliyyətində müəyyən imkanlar varmı?

**Təşkilatçı struktur**

1. Təşkilatçılıq forması qadınların ehtiyatlara müdaxilə səlahiyyətini yaxşılaşdırırmı?
2. Qadınlara lazım olan ehtiyatların başqa təşkilatlardan alınması üçün təşkilatın kifayət qədər gücü varmı?
3. Dəyişikliklər prosesində qadınlara kömək və müdafiə üçün təşkilatın kifayət qədər institutlaşmış potensialı varmı?

**Fəaliyyət və maddi-texniki təminat**

1. Heyət, yerləşmə və vaxt baxımından təşkilatın bölüşdürmə yolları qadınlar üçün aydındırmı?
2. Mallar və xidmətlərin bölüşdürülməsinin etibarlığını yoxlamaq üçün nəzarət prosedurları varmı?
3. Layihənin ehtiyatlar və nəticələrinin kişilər tərəfindən qəsb edilmədiyi haqda yoxlama mexanizmi varmı?

**Maliyyə**

1. Layihənin davam etdirilməsi üçün maliyyə mexanizmi varmı?
2. Fondların həcmləri təklif olunan məsələlərə uyğundurmu?
3. Kişilərin ehtiyatlara əsas müdaxilə səlahiyyəti aradan qaldırılıbdırmı?
4. Qadınların bölüşməsində onlar üçün fondların kifayət qədər dəqiqlik dərəcəsilə ayrılması mümkündürmü?

**Çeviklik**

1. Layihənin qadınlara təsirinin təyin edilməsinə imkan yaradacaq rəhbərliyə məlumat vermə sistemi varmı?
2. Öz strukturunun və fəaliyyətinin dəyişməsi üçün qadınlara qarşı dəyişikliklərin və yenidən uzə çıxan vəziyyətlərin təminatı üçün təşkil olunma kifayət qədər çevikdirmi?

**Layihənin dəyərləndirilməsində qadın ölçüsü**

**Tələb olunan məlumat**

1. Monitorinq və dəyərləndirmə layihə sistemi, onun qadınlara təsirini düzgün dəyərləndirirmi?
2. Fəaliyyət təhlilinin qadınların müdaxilə səlahiyyətinin və nəzarət təhlilinin yeniləşməsi üçün layihə məlumat toplayırmı?
3. Qadınlar tələb olunan məlumatın işlənib hazırlanma prosesinə cəlb olunublarmı?

**Məlumatın toplanması və təhlil**

1. Layihə onun həyata keçmə zamanı lazimi düzəliş etməyin mümkün olması üçün tez bir zamanda məlumat toplanırmı?
2. Layihəyə düzəliş etmək üçün işçi heyətinə və yardım alanlara müntəzəm və aydın formada toplanan məlumat verilirmi?
3. Məlumatın toplanması və işlənməsi prosesinə qadınlar cəlb olunurlarmı?
4. Başqa layihələrin işlənib hazırlanmasında təklifləri hazırlamaq üçün məlumat təhlil edilirmi?
5. «Qadınlar İnkişafda» konsepsiyası tədqiqatının əsas nöqteyi nəzəri təyin edilibmi?

**Fəlakət zamanı humanitar yardımın layihələri üçün sual vərəqələri**

Qender planlaşdırılmasının inkişaf proqramının vacib komponenti olması anlayışı şüurlarda daha geniş yer tutmağa başlamasına baxmayaraq, bu anlayışın effektiv planlaşdırmada, humanitar yardım planlarının reallaşdırılmasında və fovqəladə vəziyyətlərdə də vacib element olduğu nəzərdən qaçırılır. Mütəxəssisin tez reaksiya verərək qısa zamanda işə qarışması vacibliyi çox vaxt proqramların amirlik yolu ilə həyata keçirilməsinə səbəb olur.

Maddi-texniki təminatla bağlı bir çox məsələlərin həlli zamanı dövlət və qeyri-dövlət təşkilatlarının geniş dairəsi ilə işə cəlb olunan böyük sayda insanların fəaliyyətinin koordinasiyası da fövqəladə vəziyyətlər zamanı yardımın təşkilinə təsir edən amildir.

Təcrübədə yardımın tez bir zamanda paylanması vacib olan zaman yardım alan insanlarla müzakirəni istisna edən üsul tətbiq olunur ki, burada da qender qərarları nəzərdən qaçır və nəticədə yardım effektsiz və ünvansız olur.

Qadınlar, əsasən də ehtiyaclarının müzakirəsinə kifayət qədər müdaxilə etmək səlahiyyətinə malik olmayan qadınlar, çox nadir hallarda siyasətin planlaşdırılması və ya işlənib hazırlanması prosesinə cəlb olunurlar. Hərçənd ki, fövqəladə vəziyyətə düşən insanlardan çoxu, məsələn, qaçqınlar və məcburi köçkünlər, qadınlar və uşaqlardan ibarətdir.

Məhz buna görə də fövqəladə vəziyyətdə qender ölçüsünü anlamaq, qadınlarla iş üsullarını təyin etmək və həmçinin, layihənin bütün mərhələlərinə onları cəlb etmək vacibdir.

**Məlumatın toplanması**

1. Məlumatın qadınlardan və kişilərdən ayrı-ayrılıqda toplanması.
2. Qadınların məlumat toplama prossesinə, sual-cavab aparan qruplara və s. cəlb olunması.
3. Cins və yaşla əlaqədar xüsusiyyətlər üzrə məlumatın təsnifatı – bu qadınlar tərəfindən evdə görülən işin yüksək səviyyəsini və ya kimsəsiz uşaqlar qruplarını göstərə bilər.

**Əsas qender ehtiyacları**

Qadınlardan onların probleminə aid olan məlumatın toplanması.

**Su**: yeri, bölüşdürmə mexanizmi, ehtiyatların yığılma üsulu və vaxtı, konteynerlər və başqa mühafizə vasitələri, suyun istifadəsi mədəniyyəti, əl-üz yuma/yuyunma yeri, kanalizasiya sistemi.

**Qida**: qadınların, məqsədlərin, monitorinqin təyini prosesinə və qida məhsullarının bölüşdürülməsinə cəlb olunması, ailə səviyyəsində bölüşdürmə, zərər çəkən qrupların

tələbatları. Məhsulun işlənməsi və xörəyin hazırlanması qadınların işini artırır və yaxud azaldırmı? Yanacaq asanlıqlamı tapılır?
**Məskən:** təhlükəsizlikdə, təklikdə gündəlik vasitələrə (məsələn, yuma, yaxalama, kanalizasiya yerləri üçün) təhlükəsiz müdaxilə, qadınların ehtiyaclarını nəzərə alaraq, onlarla yerləşdirmə və dizayn məsələlərinin müzakirəsi. Düşərgənin dizaynı, qadınların seksual təqib edilməyə məruz qalmasını nəzərə almalıdır.
**Sağlamlıq**: qadınların səhiyyə işçisi kimi cəlb olunması, sağlamlıqla bağlı məsələlərdə qadınlarla ünsiyyət və məqsədyönlü qrupların təyin edilməsi, məsələn, qidanın və sağlamlığın qeydinə qalmağının təşkili üçün; zorakılıq – müharibə vasitəsidir və sağ qalmış qadınların tibbi yardıma, mənəvi dayağa və təhlükəsiz mühitə ehtiyacları var.

**İmkanların və hüquqların genişlənməsi: rolların və vəzifələrin dəyişməsi.**

Qaçqınlar və məcburi köçkünlər qender əlaqələrinə təsir edən dəyişikliklər prosesini çətinliklə keçirirlər. İcmaların çoxunda qadınlar və uşaqlar əzab-əziyyətə məruz qalırlar. Fovqəladə vəziyyətlər yaranan zaman onların əzab əziyyəti artır, lakin yeni imkanlar da yarana bilər. Humanitar yardım proqramları elə işlənib hazırlanmalıdırlar ki, həm qadınlara, həm də kişilərə olan əzab-əziyyəti azaltmaq və onların qarşıdurma qabiliyyətini möhkəmlətmək üçün. Onu da yadda saxlamaq lazımdır ki, qadınlar daha da hüquqsuz ola bilərlər:

- əgər onlar su və ərzaq ehtiyatlarının (məsələn, kişilər müdaxiləyə və bölüşməyə nəzarət edirlər), onların yerli hakimiyyət tərəfindən idarə etmə imkanından məhrumdurlar;
- evdə, əgər yaşayış yeri düzgün planlaşdırılmayıbsa, onların təqib edilmədən və zorakılıqdan olan əzab-əziyyəti artır;
- onların icmalarda lider rolunda. Bu çox vaxt qeyri-formal keçir, buna görə də daha az görünür və bu üzdən, icmanın kişiləri və kənar adamlar, məsələn, düşərgə rəhbərləri, humanitar agentliyin işçiləri onlara fikir verməyə də bilər. Bununla belə, qadın icma qrupları aşağı səviyyəli qender şüurunun vəziyyətinə düşürlər və buna görə də qadınların hakimiyyəti azalır.

Bütün bunlarla yanaşı qadınlara böyük səlahiyyətlər də verilə bilər:

- əgər onlara hörmətlə yanaşılarsa, onların ehtiyacları, fikirləri, qabiliyyətləri və təcrübəsi vacib lazımınca dəyərləndirilər;
- onlarla açıqaçığına onların ehtiyacları haqda məsləhətləşəndə;
- onlar layihənin işlənib hazırlanması və həyata keçirilməsinə cəlb olunanda;
- onlara ənənəvi sahələrdə hakimiyyət səlahətləri verilir, məsələn, ərzaq məhsullarının bölüşdürülməsi mexanizmində, səhiyyə xidmətlərində;
- onlara yardım və həvəsləndirmə verilir, onlara yeni şəraitdə öz üzərlərinə götürdükləri yeni rollar üçün təlim keçilir.

**Yekun**

Yuxarıda adı çəkilən təkliflər tükənməyəndir və fövqəladə vəziyyətin yaranması zamanı qender proqramlarının işlənib hazırlanmasında rəhbərlik kimi baxılır. Konteksdən asılı olaraq vəziyyətlərin müxtəlif olmasına baxmayaraq, humanitar yardımın və fövqəladə vəziyyətin yaranmasında yardımın göstərilməsi proqramının müvəffəqiyyəti üçün həlledici amil, bütün mərhələlərdə qender məsələlərinin monitorinqini qaldırmaq, daxil etmək və həyata keçirməkdir.

**Cədvəl 7. Fövqəladə vəziyyətlərdə köməklik göstərilməsi işlərinə qender aspektlərinin daxil edilməsi**




**İnkişaf layihələri üçün sual vərəqəsi: inkişafda qadınların birləşməsi layihənin məqsədidirmi?**

**Layihənin məqsədləri**

1. Layihənin məqsədləri hansılardır?
2. Yardım alanlar arasında qadınlar xüsusilə qeyd olunubmu?
3. Hansı nəticələr, əgər elələri varsa, qadınlar üçün nəzərdə tutulur, məsələn qavramanı əldə etmə (bacarıqların inkişafı), məhsuldarlığın çoxaldılması, pul qazanma imkanı və s.?
4. Hansı şərtlər inandırır ki, layihə təsiri bu nəticələrə gətirib çıxardacaq?
5. Əgər qadınlar qəsdən iştirakçı kimi qeyd olunmayıblarsa, onların hərəkətləri, layihə məqsədlərinə uyğun olacaqmı? Qadınlara aid olan komponent, layihəyə faydalı əlavə olacaqmı?

**Əsas məlumatın anlaşıqlılığı**

1. Ümumilikdə məqsədyönlü qrupa və xüsusilə də qadınlara aid hansı sosial-iqtisadi məlumat artıq anlaşıqlıdır?
2. Layihənin məqsədlərinə uyğun olaraq, qadınların rolunu daxil etməklə, iqtisadi məlumat ailə təsərrüfatı səviyyəsində sistemləşidirmi: ailə təsərrüfatının strukturu və ölçüsü, inkişaf dairəsi, cins və yaş xüsusiyyətləri üzrə bölüşmə, əmək, qərarların qəbul olunması, torpaq hüququ, satış üçün nəzərdə tutulan məhsulun və gəlir mənbələrinin ailə üzvlərinin fermadan kənar işini, əməyə olan tələbatın mövsümlüyünü daxil etməklə nəzarəti
3. Əgər əlavə məlumat lazım olarsa onun alınması üçün hansı ilkin iş aparılmalıdır?

4. Əgər məsləhətçilər, təhsil mərasimlərinin keçirilməsi şərtilə kömək edirlərsə onlara yaranan vəziyyət və qadınlar tərəfindən qoyuluş haqda qısaca da olsa məlumat verilibdirmi?

**Layihənin işlənib hazırlanması**

1. Layihə nəticəsində həyatları təsirə məruz qalacaq insanlarla məsləhətləşmələr aparılmışdırmı?
2. Qadınlar hər hansı bir səviyyədə layihənin peşəkar planlaşdırılması və həyata keçirilməsinə cəlb olunublarmı?
3. Qadınlar layihə tərəfindən verilən yeni imkanlar və xidmətlərə müdaxilə səlahiyyətilə təmin olunacaqlarmı? (təlim və xaricdə təlim üçün stipendiya, kənd təsərrüfatı inkişafı, torpağa yeni hüquqların verilməsi, kredit imkanları, kooperativlərdə iştirak)
4. Əgər bu belə deyilsə buna səbəb nədir?
5. Bu xidmətlərin qadınlara verilməsi üçün ehtiyatlar yetəridirmi? Əgər kişi işçi heyətinin əxlaqi davranışı mədəni amillər üzrə qəbul olunmursa əlavə qadın işçi heyəti yetəridirmi?
6. Əgər layihə qadınların vəziyyətinə təsir edə bilərsə onun müvazinətinin bərpası üçün hansı hərəkətlər planlaşdırılır?

**Gözlənilən təsir**

1. Qadınların iqtisadi vasitələrə və maddi gəlirlərə müdaxilə səlahiyyətlərinə, layihə necə təsir edir? (torpağa müdaxilə səlahiyyəti ödənilən işi almaq üçün və başqa gəlir gətirən fəaliyyətlə məşğul olmaq üçün imkan, ailə təsərrüfatının başqa nümayəndələri tərəfindən iqtisadi fəaliyyətin həyata keçməsinə yardım, məhsulun satışına nəzarət). Layihə məqsədləri üçün qeyd olunan gəlir, gözlənilən gəlirdən fərqlənirmi?
2. Layihə qadınların vaxtının bölüşdürülməsinə necə təsir edir? Onların işlə yüklənməsi, yeniliklər və dəyişikliklər nəticəsində artıb və ya azalacaqmı? (mexanikləşdirmə; yeni əkinti materialının istifadəsi; bir sıra vəzifələrin, ailə təsərrüfatının başqa nümayəndələrinə keçməsi; rasional qidanın və sağlamlığın qorunması üsullarının təlimi; fermaya, iş yerinə, su mənbələrinə, yanacağa olan məsafənin dəyişməsi və s. nəticəsində) əgər işlə yüklənmə azalırsa, bu qadınların gəlirlərinin əldən çıxmasına gətirib çıxarırmı?
3. Layihə, məqsədyönlü qruplarda yaşayış üçün vəsaitlərə və ailə təsərrüfatı üçün ərzaq məhsulları üzrə qadınların nəzarətinə necə təsir edir?

Kommersiya kənd təsərrüfatının genişlənməsi, xüsusilə ailə istifadəsində məhsulun istehsalı üçün olan torpağın əlverişliyinə; qadınların, torpağa müdaxilə səlahiyyətinə, ərzaq, kənd təsərrüfatı məhsullarının istehsalına olan kişi və qadın əməyinin payına təsir edəcəkmi?

Hər hansı bir qida mənbələri dəyişdirilib və ya azalacaqlarmı?

Qadınların qida üçün və ailə təsərrüfatının başqa ehtiyaclarının təminatı üçün, partnyorun maddi gəlirindən asılılığı artacaqmı? Bu halda gəlir itirilənlərin bərpası üçün yetərli olacaqmı? Dünya bazarında olan sıçrayışlar və ya iqlim şəraitinin dəyişməsi necə özünü göstərir? Belə bir nəticəyə gəlmək olarmı ki, kişilərin gəliri ailə təsərrüfatının əsas ehtiyaclarının təminatı üçün nəzərə çarpacaq dərəcədə azalacaq.

Əsas ərzaq məhsulundan dəyişikliklər olacaqmı? Bu əlverişli olacaqmı? Bu xörəyin hazırlanması üçün lazım olan vaxtın artmasına səbəb olacaqmı?

Əməyin bölüşdürülməsindəki dəyişikliklər ailə təsərrüfatının nümayəndələrindən hər hansınınsa qidaya olan ehtiyacını dəyişəcəkmi? Onların məmnun qalması üçün alternativ mənbələr və ya artmış maddi gəlir yetərlidirmi? Əgər yetərli deyilsə, qadınlar

və uşaqlar üçün nəticələr necədir, xüsusən də, əgər qidanın qeyri-bərabər bölüşdürülməsi ənənəvidirsə?

4. Təcili təsirdən kənar qalan qanunlarda və kateqoriyalarda həyata keçirilən layihənin qadınlar üçün hansı bir mənfi nəticəsi mümkündür?

**Dəyərləndirmə**

1. Layihənin qadınlara təsirinin monitorinqi və dəyərləndirilməsi nəzərə alınıbdırmı?
2. Bu məqsədlər üçün nəzərdə tutulan tarix münasib olacaqmı?
3. Hansı faktiki indikatorlar münasib olacaqlar?

## Qadın statusunun meyarları

Qadın inkişafının layihəsi qadın statusunu inkişafı aşağıda adı çəkilən göstəricilərdə görünəcək dərəcəyə kimi yaxşılaşdıran sayıla bilər.
**Əsas ehtiyaclar**: qadınların əsas ehtiyaclarının daha yaxşı təmin edilməsi, məsələn, su, qida, yanacaq, mənzil şəraiti və sağlamlığın qeydinə qalması ilə, əsas ehtiyacların qadınlar və kişilər arasında proporsional bölüşdürülməsi ilə.
**Liderlik:** icmada qadındarın və kişilərin lider rollarına proporsional təqdim edilməsi; qadınların lider kimi qadın məsələlərinə cəlb olunması.
**Anlama:** qadın ehtiyaclarının və qadın məsələrinin onlar tərəfindən dərk edilməsi; qadınlara qarşı diskriminasiyanın dərk edilməsi, qadın maraqları və qadın hüquqları ilə bağlı məsələlərin təhlil edilməsi qabiliyyəti.
**Ehtiyacların dəyərləndirilməsi:** icmanın birincilik təşkil edən ehtiyaclarının və spesifik qadın ehtiyaclarının təyininə qadınların cəlb olunması.
**Planlaşdırma:** qadınların layihənin işlənib hazırlanması, həyata keçirilməsi və dəyərləndirilməsinə cəlb olunması.
**Cins xüsusiyyəti üzrə əmək bölgüsü:** qadınların ənənəvi olaraq kişilər tərəfindən həll olunan məsələlərin həllinə cəlb olunması; ənənəvi olaraq qadınlar tərəfindən həll olunan məsələlərin həllinə kişilərin cəlb olunma səviyyəsi; kişilərin iş saatının orta miqdarı ilə müqayisədə işgüzar qadının iş saatının orta miqdarı.
**İstehsal amilləri üzərində nəzarət:** qadınların torpaq, kreditlər, gəlirin bölüşdürülməsi və kapitalın toplanması üzərində nəzarəti və daxilolma səlahiyyəti.
Bu göstəriciləri əks etdirən qayda onların ardıcıllığının olduğu kimi nəzərdə tutmur. Sədacə nəzərdə tutulur ki, müvəffəqiyyətli layihə bu bir neçə göstəricilərlə irəliləyiş əldə etməlidir və müvəffəqiyyətli proqram bu göstəricilərin hamısında qadın statusunun yaxşılaşmasını nəzərdə tutan layihələri daxil etməlidir.

## TƏCRÜBİ MİSALLARIN İŞLƏNİB HAZIRLANMASI.

Təcrübi misallar ona görə faydalıdır ki, onlar təlim iştirakçılarına gələcəkdə rast gələ biləcəkləri bütün tip vəziyyətlərdə öz qabiliyyətlərini təcrübədə yoxlamaq üçün şans verirlər. Təcrübi misalların elə istifadə edilməsi məsləhət görülür ki, iştirakçılar konkret iş misalında təcrübə və biliklərlə bölüşə bilməsi məqsədilə onların qrupda birgə öyrənilməsi və müzakirəsi mümkün olsun. Təcrübi misal iştirakçılardan biri və ya iştirakçılar qrupu tərəfindən hazırlanıb təqdim edilən zaman, bu təlim nöqteyi-nəzəri daha da güclü və effektiv ola bilər. Təcrübi misalların zəifliyi reallığın xəyalı ilə bağlıdır, lakin xüsusilə seçilən faktlar istifadə olunduqda onlar faktiki olaraq reallığın balaca bir fraqmentidirlər. Təlimin qender sayağı olduğunu nəzərə alaraq təcrübi misalları əsaslı olaraq, başqa məsələlər üzrə məlumatı qısaldaraq qender problemləri ilə bağlı məlumata yönəltməlidirlər. Reallıq həmişə təcrübi misallardakı vəziyyətdən daha da mürəkkəb olur. Lakin bu da təlimin bir hissəsidir. İştirakçılar təcrübi misallarda onlara

təhlil və ya planlaşdırma üçün lazım olan məlumatın olmadığından narazı ola bilərlər, ancaq onu yadda saxlamaq lazımdır ki, real həyatda bu tez-tez olur. Mətləb daha effektiv yollar ilə yararlı məlumatın yığılmasının vacibliyindədir.
Təkidlə məsləhət görülür ki, iştirakçılardan öz təcrübi misallarının hazırlanmasını imkan daxilində xahiş edilsin. Bu halda başqa iştirakçılar konkret təcrübi misalı göstərən şəxsdən, çatışmayan məlumatı ala bilərlər və onda məsələ daha da həqiqi və vasitəsiz olur.

**Təcrübi misalların yazılması üçün əsas bəndlər**
Təcrübi misalı yazmaq heç də asan deyil. Onlar tədris məqsədləri üçün maksimal dərəcədə uyğunlaşmalıdırlar. Əgər siz, iştirakçılardan təcrübə misalları yazmağı xahiş edirsinizsə, onda onlara təlimat vermək lazımdır. Yazmağa başlamazdan əvvəl aşağıda göstərilən bir neçə sualı vermək lazımdır:

- **Təcrübə misal nə üçün təsis edilir?** Əmin olun ki, siz bunu tam dəqiqliklə təsvir edirsiniz. O, nə üçün sizə gərəkdir? Siz onu necə istifadə etməyə hazırlaşırsınız?
- **Təcrübə misalı kimin üçün təxsis edilir?** Sizin oxucuların/dinldəyicilərin ehtiyacları nəyədir? Onlara hansı məlumat lazımdır? Təsviri misalın onların işinə necə aidiyyatı ola bilər?
- **Sizin nə qədər vaxtınız var?** Təcrübi misalın müddəti sizin olan vaxtınızdan asılıdır. Qısa misallar tədris zamanı uzun misallar kimi effektiv ola bilərlər.
- **Sizin təlim qrupu necə təcrübəyə malikdir?** Siz iştirakçılara öz misallarını yazmağı təklif edə bilərsiniz. Əgər siz özünüz onları yazmağa hazırlaşırsınızsa, onda əmin olun ki, sizin qrupun fəaliyyət növünə və təcrübəsinə uyğun gəlir.
- **Siz real və ya hipotetik vəziyyətdən istifadə etməyə hazırlaşırsınızmı?** Əgər siz çox spesifik analitik strukturu gözdən keçirmək istəyirsinizsə, onda siz təhlil üzrə çalışmaların tamalanması üçün bütün lazımi məlumatdan ibarət olacaq hipotetik vəziyyəti işləyib hazırlaya bilərsiniz. Lakin reallıqda bu belə deyil və insanlar sizə lazım olan yararlı formada bütün məlumatdan ibarət olmayan real vəziyyətləri təhlil etməli olacaqlar. Əgər siz, real vəziyyəti istifadə etməyə çalışırsınızsa, siz yuxarıda sadalanan məqamları fikrinizdə saxlayaraq diqqətli seçim etməlisiniz.

**Real vəziyyət əsasında necə təcrübi misal hazırlamaq olar?:**
İnkişaf üzrə təcrübi misalların işlənib hazırlanması və humanitar yardımın göstərilməsi prosesində faydalı sayılan tövsiyyələrin bir neçəsi aşağıda verilir. Onlar tükənən deyillər və sizin istifadə edəcəyiniz üsul bir çox şeydə sizin spesifik ehtiyaclarınızdan asılı olacaq.

- Sizin təcrübi misalların daxil etmək istədiyiniz əsas məsələsini tam və dəqiq aydınlaşdırın (məsələn, qadınlara qarşı struktur dəyişikliklərin siyasətlərinin effekti) və onlarla bağlı başqa sualları (məsələn, qeyri-hökumət təşkilatları tərəfindən inkişaf sahəsində olan vəziyyətə yönələn təsirin təşəbbüsünün problemləri).
- Layihənin təhlili və müzakirə olunan məsələlər üzrə ilkin məlumatı tədqiqat məqalələrindən, qəzetlərdən, statistik yoxlama və məruzələrdən və sizin təşkilatda olan öz şəxsi işlərinizdən seçin.
- Öz tədqiqatlarınızı planlaşdırın: aparmalı olduğunuz görüşlər, müsahibə almalı olduğunuz insanlar, buna görə kiminlə əlaqə yaratmalısınız. Görüşləri təşkil etməkdə sizə kömək edən qeyri-hökumət təşkilatlarına və başqa təşkilatlara təcrübi misalların işlənib hazırlanmasında sizin maraq və məqsədlərinizin nədən ibarət olduğunu açıq aydınlaşdırın.

- Məlumatın toplanma texnikası üzərində fikirləşin. Siz, məcburi olmayan söhbətləri, rəsmi müsahibələri sual vərəqələrinin, mövsümi təqvimlərini və s. apara bilərsiniz. Əmin olun ki, sizin ünsiyətdə olacağınız insanlara istifadə etdiyiniz texniki üsullar tanışdır. Əmin olun ki, sizə hansı məlumatın lazım olduğunu dəqiq bilirsiniz, lakin eyni zamanda, sizin güman etmədiyiniz məlumatı almağa da hazır olun.
- Əmin olun ki, siz geniş insan dairəsi ilə, həm kişilər, həm də qadınlarla görüşlər aparırsınız. Onların arasında qeyri-hökumət təşkilatlarının heyəti, rəsmi dövlət məmurları, yerli təşkilatlar, kənd və şəhər icmalarından olan kişilər və qadınlar, səhiyyə işçiləri, kənd təsərrüfatı işçiləri, müəllimlər və s. ola bilərlər. Müxtəlif yaşlı insanları, müxtəlif etnik və ya təbəqə (kasta) qruplarının nümayəndələrini seçin, onlarla ünsiyyətdə olun və eyni vəziyyətə aid olan müxtəlif fikirlər yazın.
- Öz tədqiqatınıza dəyişiklikləri də daxil edin: müəyyən bir müddət keçdikdən sonra vəziyyət necə dəyişdi? Gələcəkdə olan dəyişikliklərdən kişilər və qadınlar nə gözləyirlər?
- Əmin olun ki, sizin nəzərdən keçirdiyiniz layihə təsirinin hər bəndləri üzrə sizin çox yaxşı «**nəticələr**» adlı bölümünüz var. Bu, təcrübi misalın özəyidir. O, tamamilə dəqiq, **nə olduğunu** göstərməlidir və qender perspektivləri baxımından **bu nəyə görə baş verdiyi** haqda dəqiq göstəricilər verməlidir. Kişilərlə nə baş verib? Qadınlarla nə baş verib? Oxşarlıq və fərq nədədir?

**Təcrübi misal nəyi əhatə etməlidir**

Sizin təcrübi misalınız aşağıdakıları əhatə etməlidir:

- Layihə təsirinin beynəlxalq, milli və yerli konteksti haqda bölmə (siyasi, mədəni, sosial-iqtisadi), qadınlar və qender əlaqələri üçün əhəmiyyət;
- Vəziyyətin əsas iştirakçılarının, məsələn, yerli qeyri-hökumət təşkilatların, yerli qadın və kişi təşkilatlarının, yerli, regional hakimiyyət orqanlarının, milli hökumətin, inkişaf üzrə xarici agentliklərin, məsələn, qadınların həyatına və qender əlaqələrinə olan təsir haqda informasiyaları olan xarici fondların fəaliyyəti haqda bölmə;
- Humanitar yardım və inkişaf kontekstində olan qender əlaqələri üzrə bölmə, qender əmək bölgüsü, daxilolma və təbii ehtiyatların və layihə nəticələrinin nəzarəti haqda hesabat, şəhər və ya kənd icmasında qərar qəbuletmə prosesi, yaş, təbəqə, etnik aid olma və s. kimi başqa sosial fərqlərin təsiri daxil olmaqla;
- Qadınların həyatındakı dəyişikliklər və qender əlaqələrindəki dəyişikliklər nöqteyi-nəzərindən təsir məsələləri haqda hesabat

<u>Gözdən keçirmə və müzakirə üçün verilən məsələlər.</u>

1. Analitik sistemlər

| | |
|---|---|
| Mozer üsulu | 2 saat |
| Harvard sistemləri | 2 – 2,5 saat |
| Üsulların müqayisəsi | 1 saat |
| Lonqvi üsulu | 2 saat |

| | |
|---|---|
| Layihələrdə qender şüuru | 45 – 60 dəqiqə |
| Sual vərəqələri | |
| Layihənin yaradılması | 1,5 – 2 saat |

2. Təcrübi misallar

| | |
|---|---|
| Təcrübi misalların istifadəsi | 1 – 2 saat |
| Bir-neçə təcrübi misallar | 40 dəqiqə |